

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (24.142)

*12 yanvar 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

2023-cü il “Heydər Əliyev İli”dir

## Heydər Əliyev siyasəti

### Hər birimiz üçün oxunmalı və öyrənilməli olan bir elm




*Tarixi böyük şəxsiyyətlər yaradırlar. Və gördükləri cahanşümul işləri ilə də bu tarixi səciyyələndirirlər. Belə şəxsiyyətlərə məxsus olan ən yüksək və ali keyfiyyət xalq və Vətən qarşısındakı borcu yerinə yetirməkdə fədailik göstərməkdir. Bu onların həyat kredosudur. Həmin nöqteyi-nəzərdən yanaşsaq, XX əsr xalqımız üçün tarixdə əbədi yaşamaq hüququ qazanmış bir əsr, XXI əsr isə bu tarixin məntiqi davamıdır.*

Ötən əsrin 60-cı illərinin sonlarını, daha doğrusu, 1969-cu ilin avqust ayından bu tərəfi xatırlayanlar bir daha bu həqiqəti təsdiq edərlər ki, Azərbaycan tarixinin o vaxtdan başlanan dövrü Heydər Əliyev siyasətinin xalqın xoşbəxtliyinə, dövlətimizin dirçəlməsinə yönəldilmiş təntənəsi – Heydər Əliyev dövrüdür. Bütövlükdə, Azərbaycançılıqla yoğrulmuş, tarixi soy-kökdən qaynaqlanaraq millilik təməli üzərində qurulmuş, minilliklərin sınağından çıxan mənəvi dəyərlərimizə söykənmiş Heydər Əliyev siyasəti o dövrdə çoxlarının təsəvvürünə belə gətirməyə ehtiyat etdiyi bir siyasət idi. Çünki “Parçala, əz, hökm sür” siyasəti aparıcı rol oynayan bir imperiyada “kiçik əyalət xalqları”nın “böyük qardaşları”nın göstərişlərindən kənara çıxmağa heç bir haqları ola bilməzdi. Çünki bu “qardaşlar” ucqarlarda yaşayan xalqlara heç də bərabər olmayan “bərabərlik”, həmçinin “sülh” və “qardaşlıq” bəxş etmişdi. Bu, “ərməğanların bəhrəsi”ni biz əvvəllər də görmüşdük, kulminasiyasını isə bizimlə yanaşı, bir bayraq altında toplaşan digər millətlər də 1988-90-cı illərdə gördülər. Bütün bu olacaqları görkəmli dövlət xadimi Heydər Əliyev hələ hakimiyyətə gələndə bilirdi. Milli azlıqların da arzularının əbədi və əzəli istək, insanın insan kimi yaşamaq hüququ olduğunu da bilirdi, bu cür düşünənlərə qarşı qırmızı imperiyanın qısqanclığının nə üstündə qurulduğunu da. Və onların təzyiqlərini də hiss edirdi. Xarakterində geriyə yol olmadığı üçün çox düzgün olaraq düşünürdü ki, haqqa, ədalətə söykənən fəaliyyətin qabağına yuxarıların sipər çəkmək istəyi nəhəng selin qabağını kəsməyə cəhd göstərmək kimi bir işdir.

Xalqın keşməkeşli, mübarizələrlə dolu tarixini əsl vətəndaş, vətənpərvər dövlət başçısı kimi yaxşı bildiyindən başı min bir bəla çəkmiş millətin layiq olduğu səviyyədə yaşamasını təmin etmək, “Yoxdur millətimin imzası bu imzalar içində” fəryadı qarşısına çıxmaq üçün rastlaşdığı bütün maneələri dəf etməyə də gücü çatdı. Çünki xalqını aydınlığa çıxarmaq üçün əfsanəvi Danko kimi ürəyini qoymuşdu bu yolda.

*Mən yanmasam,*
*Sən yanmasan*
*Necə çıxar*
*qaranlıqlar aydınlığa?* –

idealı ilə mübarizə aparan Heydər Əliyev uzaqgörənliyi onun bütün çoxsahəli fəaliyyətində təzahür edirdi və yaşamaq, qurub-yaratmaq ümidini yenidən qaytardığı üçün bu böyük şəxsiyyəti xalq özünün arxası, dayağı bilirdi. Təkcə bu günümüz barədə düşünmürdü xalqımızın böyük oğlu. Sabaha olan övladlıq borcunu unutmayaraq intellektual səviyyəli vətənpərvər kadrlar yetişdirmək, gələcək üçün güclü potensial yaratmaq və dövləti məhz bu potensiala təhvil vermək istiqamətində atdığı addımlar ali bir məqsədə söykənmişdi: düşmən qabağında heç vaxt əyilməyən, sınmayan bir millətin övladları ulu babalarından onlara qalan mirası – milli-mənəvi və maddi-mədəni dəyərləri qoruyub saxlamalı, gələcək nəsillərə çatdırmalıdırlar. Bu ülvi idealın da təməlində gələcəyimizə soy-kökümüzdən doğan cavabdehlik hissləri dururdu.

...Çoxlarımızın yaşadığı, yaxşı xatırladığı o günləri xarakterizə etmək tariximizin 35 illik bir dövrünün salnaməsini yaratmaq deməkdir – şərəfli və öyünüləsi bir dövrünün. Tarixə yazılmış bu salnamənin hər kiçik detalı o günlərimizin inkişaf və tərəqqi tarixidir; cild-cild kitablara, böyük zamanlara sığmayan bu tarixin ən böyük hadisəsi məhz dahi şəxsiyyət Heydər Əliyevdir. Buna görə də Heydər Əliyev ömrü, Heydər Əliyev ictimai-siyasi fəaliyyəti ölməzdir; daha böyük nailiyyətlər qazanmaq üçün sınaqdan çıxmış proqram sənədimizdir; hər birimiz üçün oxumalı, öyrənməli olan örnək və qürur mənbəyidir.

Dönməz qətiyyəti və möhkəm iradəsi, dərin zəkası ilə siyasət aləmində tanınmağa başlayanda Sovetlər Birliyində vahid idarəçilik prinsipi mövcud idi. Bu prinsiplərdən imtina etmək – köhnə stereotiplərdən əl çəkmək barədə düşünməyə belə dəyməzdi. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz o vaxt üzə çıxmağa başladı. 15 müttəfiq respublika içərisində ən geridə qalan ucqar əyalət hesab olunan Azərbaycan qısa bir müddətdə öz müdrik və uzaqgörən başçısının rəhbərliyi ilə iri addımlarla irəliləməyə başladı. Respublikamız xalq təsərrüfatının bütün sahələrində kosmik sürətli yüksəliş yoluna qədəm qoydu. İqtisadiyyatımız yeni əsaslarla qurulmağa başladı. Təhsil, səhiyyə, mədəniyyət qısa bir müddət ərzində on illərin inkişaf yolunu keçdi. Mərkəzlə yanaşı, respublikanın ucqar yerlərində belə tikinti-quruculuq işləri geniş vüsət aldı. Görkəmli dövlət xadiminin şəxsi keyfiyyətləri, yüksək nüfuzu sayəsində mərkəzdən alınan maliyyə dəstəyi hesabına ehtiyac duyulan bir sıra istehsal müəssisələri yaradıldı. Fabrik və zavodlar işə düşdü. Yaşayış obyektləri, mədəni-maarif ocaqları inşa olundu. Uzun illər kök salmış bir sıra qlobal problemlərin həlli yollarında qəti addımlar atıldı.

Postsovet məkanının onu gözü götürməyən bəzi liderləri respublikada bu güclü inkişafı “üzəngi parıldatmaq” kimi qəbul etsələr də, sonralar öz qənaətlərində yanıldıqlarını başa düşdülər. Və belə bir şəxsiyyəti sanki yenidən tanımağa başladılar. Mərkəzi Komitənin Siyasi Bürosuna üzvlüyə namizəd seçilməsi isə çoxlarının kürkünə birə saldı. Çünki o öz əqidəsinə sadiq qalaraq belələrinin çirkin əməllərlə məşğul olmalarına imkan vermirdi. 1982-ci ildə Siyasi Büro üzvlüyünə namizədlikdən üzvlüyə keçirilən Ulu Öndər Sovet İttifaqına rəhbər vəzifəyə aparıldı. Bu isə onun işgüzar fəaliyyətinə verilən qiymət idi. Və bu böyük şəxsiyyət, Ümummilli Lider bu posta layiq olduğunu öz fəaliyyəti ilə sübut etdi.

...Qarşıda isə onu bir vaxtlar ayağa qaldırdığı, lakin fəaliyyətləri şəxsi ambisiyaları üzərində qurulan başıboş dövlət rəhbərlərinin səriştəsizliyi ucbatından günü-gündən geri düşən Azərbaycan gözləyirdi. Sonralar Ulu Öndər özü də deyəcəkdi ki, öz əllərimlə qurduğum Azərbaycanın belə vəziyyətə düşməsinə biganə, laqeyd qala bilməzdim. Xalqın tələbi ilə yenidən ölkəmizə hakimiyyətə qayıdan Heydər Əliyev bugünkü Azərbaycanı sıfırdan qurmağa başladı. Qarşılaşdığı heç bir çətinlik görkəmli siyasət xadimini qorxutmadı. Çoxillik idarəetmə təcrübəsi, kadrlarla işləmək bacarığı, şəxsi nüfuzu və ən başlıcası Böyük Azərbaycançılığı, vətənpərvərliyi hesabına qarşısına qoyduğu məqsədə nail ola bildi.

“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: ***“Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur”.***

Bu gün dünyanın ən məşhur siyasətçiləri belə Heydər Əliyev təliminin ən mükəmməl təlim olduğunu etiraf edirlər. Bu təlimin bəhrələridir ki, Azərbaycan dünyada tanınıb, söz sahibi olub. Bu təlim oxunmalı və öyrənilməli olan bir elmdir.

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Sənaye məhsullarının həcmi ümumi daxili məhsulda ilk yeri tutur





Naxçıvan Muxtar Respublikası zəngin sənaye potensialına malikdir. Muxtar respublikanın təbii sərvətləri hələ ötən əsrdən başlayaraq burada mineral sular, daşduz, travertin və digər sahələrin sənaye üsulu ilə istehsalına imkan verib. Lakin ötən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərin əvvəllərində məlum durğunluq digər sahələr kimi, sənaye istehsalına da öz mənfi təsirini göstərib. Əlavə olaraq muxtar regionun blokadaya salınması yerli məhsulların istehsalına öz mənfi təsirini göstərib. Lakin Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli inkişaf strategiyası və iqtisadiyyata yeni yanaşmalar region sənayesinin də dirçəldilməsinə töhfəsini verib. Tədricən yerli müəssisələrin yaradılması muxtar respublikada idxal olunan məhsulların həcmini ildən-ilə azaldıb. Hazırda isə muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı yerli imkanlar hesabına ödənilir.

Sənaye məhsullarının istehsalı müasir dövrdə iqtisadiyyatın əsas sahəsini təşkil edir. Burada isə ən böyük rolu özəl sektor oynayır. Təsadüfi deyil ki, bu gün istehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 92,3 faiz təşkil edir. Bu faiz həm də onu göstərir ki, muxtar respublikada sənaye sahibkarlığına böyük maraq var və dövlətin də dəstəyi nəticəsində sənaye sahəsində çalışan sahibkarlar tərəfindən hər il yeni istehsal sahələri yaradılır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə hazırda muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yer sənaye sahəsinə aiddir. Statistikaya görə, sənaye üzrə 2022-ci ilin yanvar-noyabr aylarında 1 milyard 26 milyon 196 min 200 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur.

**✍ Səbuhi HƏSƏNOV**



# İqtisadiyyat

## Yeni inkişaf mərhələsi güclü iqtisadi ehtiyatlar üzə çıxarır

*Yeni mərhələdə dünyada gedən sosial-iqtisadi sahədə ölkə başçımızın həyata keçirdiyi çoxsaylı tədbirlər məqsədyönlülüyü ilə seçilməkdədir. Dövlət miqyasında, xüsusən Prezident cənab İlham Əliyevin ciddi nəzarətində olan bu məsələlər iqtisadi proseslərin tənzimlənməsində milli-iqtisadi maraqların üstün tutulması ilə həyata keçirilməkdədir.*

Zaman-zaman dünya bazarında tarazlığın itməsi, neftin qiymətinə təsir edən subyektiv amillərin təsiri faktının günbəgün təsdiqlənməsi, COVID-19 pandemiyasının ölkələrin milli iqtisadiyyatları üçün təhdid yaratması, ölkələrarası iqtisadi və siyasi əlaqələrin hədsiz aşağı düşməsi, demoqrafik tarazlığın pozulması (miqrant problemlərinin yaşanması), milli valyutaların devalvasiyaya uğraması, demək olar ki, bütün ölkələrin milli iqtisadiyyatlarına öz mənfi təsirlərini göstərmişdir. Nəticədə isə yaranan neqativ hallar, ümumilikdə, dünya iqtisadiyyatında tənəzzül meyillərinin müşayiət olunmasına gətirib çıxarmışdır. Belə olan halda ölkələrin iqtisadi sıxıntılardan xilas ola bilmə qabiliyyətlərinin çevik vəziyyətə gətirilməsi məqsədyönlü iqtisadi siyasətin yeridilməsi tədbirlərində də qaçılmaz etməkdədir. Antiböhran proqramlarının qəbulu və uğurla icra olunması, bu istiqamətdə makroiqtisadi siyasətin həyata keçirilməsi, qənaətcilik istiqamətində qətiyyət göstərilməsi, iqtisadi fəaliyyətin bütün sahələrində şəffaflığın təmin olunması, sahibkarlığa sağlam və faydalı şəraitin yaradılması, iqtisadiyyatın çoxşaxəliliyinin reallaşması, idxaldan asılılığın minimuma endirilməsi, ixrac potensialının və rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılması, yerli istehsalın təşviqinin işlək mexanizmlər vasitəsilə həyata keçirilməsi özünün aktuallığı ilə seçilməkdədir.







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində ötən illərdə ölkə iqtisadiyyatının inkişaf vəziyyətini, hazırkı şəraitdə iqtisadiyyatımızın dünya miqyasında baş verən xoşagəlməz halların təsirindən qorunmasını, eyni zamanda gələcək inkişaf istiqamətləri və perspektivlərinin müəyyənləşdirilməsi məsələlərini əhatəli şəkildə qeyd etdi.

Ölkə başçısı dünya iqtisadi, siyasi və hərbi böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatının artdığını qeyd etdi. Belə ki, rəsmi məlumatlara əsasən iqtisadiyyat, təxminən, 5 faiz artıb, qeyri-neft sektorunda 9 faizdən çox artım qeydə alınıb. Bununla bərabər, dəqiqləşdirilmiş son məlumatlara görə ümumi daxili məhsulumuz bu il rekord həddə – 134 milyard manata çatıb. Bu, tarixi nailiyyətdir. Bununla paralel olaraq bizim xarici dövlət borcumuz xeyli azalıb. Bu vəzifəni bir neçə il bundan qabaq Prezident hökumət qarşısında qoymuşdu ki, xarici borc ümumi daxili məhsulun 10 faizinin altında olmalıdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, keçən il 17 faiz idi, bu ilin son nəticələrinə görə 9,5 faizdir.

Bütün iqtisadi rayonlar kimi, Naxçıvan Muxtar Respublikası da dövlətin hərtərəfli qayğısından dolğun şəkildə yararlanmaqdadır. ***“Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır”***, – deyən dövlətimizin başçısı, bu istiqamətdə nailiyyətlərə çatmaq üçün güclü iqtisadiyyatımızın olmasına və iqtisadi müstəqilliyin çoxdan təmin olunmasına diqqət çəkdi.

Artıq yeni inkişaf mərhələsində milli iqtisadiyyatın gəlirliliyinin artırılması, sosial siyasətin dayanıqlılığının təmin olunması, iqtisadi idarəetmənin daha da təkmilləşdirilməsi, sahibkarlığın inkişafına təkan olacaq mühitin bərqərar edilməsi, yeni istehsal sahələrinin təşviqinin stimullaşdırılması və sair məsələlərin həlli qarşıdakı mərhələlərdə strateji hədəflər içərisində yer almaqdadır. Bunun üçün xarici investisiyalarla yanaşı, yerli sahibkarların da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymaları əhəmiyyətli olacaqdır.

Təbii ki, bütün bu qeyd olunanlar, Naxçıvan Muxtar Respublikasının bundan sonrakı inkişaf perspektivlərinə işıq salmaqla onun təminatqabiliyyətliliyini daha da artırmış olacaq. Nəticədə isə təsərrüfat subyektlərinin fəaliyyətində səmərəlilik göstəriciləri yüksəlməklə, istehsal və məşğulluq səviyyəsinin artırılmasına zəmin yaranacaq.

Məlumdur ki, muxtar respublika iqtisadiyyatının sahə strukturu, xüsusilə də onun aparıcı sahələrinin əlaqəli inkişafı üçün mühüm resurslar mövcuddur. İstər kənd təsərrüfatının, istərsə də onun xammal bazası olduğu sənaye bölməsinin etibarlı perspektivlərə malik olduğunu ifadə edə bilərik. Kənd təsərrüfatının mövcud resursları ilk olaraq onun torpaqlarına və günəşli iqlim göstəricilərinə əsasən yararlıdır. Buna görə də bu mühüm sahədə dayanıqlı, ardıcıl və davamlı inkişafı təmin etmək məqsədilə dövlət tənzimlənməsinin əhəmiyyəti böyükdür. Düşünürük ki, muxtar respublika iqtisadiyyatının sahə strukturunda əsas yeri olan kənd təsərrüfatının davamlı inkişafı istiqamətində fəaliyyətin aşağıdakı istiqamətlərdə qurulması faydalı ola bilər:

1. Vətəndaşların mülkiyyətindəki torpaq sahələrinin məqsədəuyğun, vaxtında və səmərəli istifadə edilməsinə nəzarət olunmalıdır. Yəni yerli özünüidarə orqanları (bələdiyyələr) bu işlərdə çeviklik göstərməlidir. Konkret olaraq ya stimul, yaxud da tələb əsasında bu işlərə diqqət artırılmalıdır;

2. Müxtəlif maarifləndirici vasitələrlə kəndlilərin (torpaq istifadəçilərinin və ya məhsul istehsalçılarının) səmərəli fəaliyyətə istiqamətləndirilməsinin təmin edilməsi. Əsasən, uçqar dağ kəndlərində yaşayan insanların fəaliyyətlərinin stimullaşdırılması üçün müəyyən məsafədə qəbul məntəqələrinin istifadəyə verilməsini zəruri hesab edirik. Kəndli, istehsalçı əmin olmalıdır ki, onun məhsulu zay olmayacaq və o, məhsulunu istehsal edəcəyi anda təhvil verəcək;

3. Qəbul məntəqəsinin fəaliyyət mexanizmlərinin işlənib hazırlanması zamanı (onun adını əlaqələndirici mərkəz kimi də ifadə edə bilərik) onun ümumi xarakter daşıması da təmin edilməlidir. Yəni kənd təsərrüfatına aid məhsulların bütün növlərinin qəbulu bu məntəqədə təmin edilə bilər. Elə kəndlilərimiz var ki, onların öhdəsində torpaq sahələri olsa da, heyvandarlıqla məşğul olmaları üçün təsərrüfatları olmaya da bilər. Belə olan halda onlar əkib-becərməyə heç də maraq göstərmək istəmirlər. Ancaq qəbul məntəqələri və yaxud əlaqələndirici mərkəzlərin olması onlara yenə də əkib-becərməyə stimul verəcək, hətta onların heyvandarlığa olan maraqlarını da artırmış olacaq. Üzümçülük, əkinçilik, heyvandarlıq, quşçuluq və digər sahələrə aid məhsulların istehsalının və satışının çevikliyinin əlverişli yollarından biri kimi bunu önəmli hesab edirik;

4. Regionlarda yaradılacaq qəbul məntəqələrinin və əlaqələndirici mərkəzlərin bir-biri və emal müəssisələri ilə sıx əlaqələri təmin edilməlidir. Bu məntəqə və ya mərkəzlər daxili bazarlara olan tələbatı müntəzəm olaraq öyrənməli, ümumiyyətlə, marketinq xidmətləri vasitəsilə tələb və təklifin səviyyəsinə uyğun olaraq fəaliyyətlərini tənzimləməlidirlər;

5. Bu məntəqə və ya mərkəzlər məhsul istehsalçıları ilə arasıkəsilməz əlaqələrdə olmalı, istehsal edilən məhsulların toplanması (yığılması), vaxt və məhsul itkilərinə yol verilməməsi üçün işlərinin səmərəli qurulmasında operativ olmalıdırlar;

6. Həmin məntəqə və ya mərkəzlər öz müştərilərini də qazanmaq (və itirməmək) üçün reklam xidmətlərini düzgün təşkil etməli, müxtəlif informasiya vasitələrinin imkanlarından səmərəli yararlanmalıdırlar;

7. Onların regionlardakı aqroparklarla sıx əlaqələrinin qurulması diqqətdə saxlanılmalı, kəndlilərin texniki təminatlardan yararlanmalarının təşəbbüskarlığı stimullaşdırılmalıdır;

8. Kəndlilərin istifadəsində olan torpaq sahələrinin əkinəyararlılıq səviyyəsinin artırılması yolu ilə onların münbitliyinin qorunmasına ciddi diqqət yetirilməli, istifadə edilməyən torpaq sahəsi qalmamalıdır. Torpaq fondunun azaldılmaması üçün nəzarət ciddi təmin edilməlidir;

9. Suvarma sistemlərinin təminatı və genişmiqyaslılığının təmin edilməsi məqsədilə nasos stansiyalarının, subartezian quyularının və göllərin daha da artırılması məsələlərinə diqqət artırılmalı, bu bütün kəndləri əhatə edəcək səviyyədə olmalıdır;

10. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Əlincə bölgəsində eyniadlı su anbarının tikilməsi ilə su ehtiyatlarını artırar və bu prosesdə Bənəniyar Su Anbarının yükünün yüngülləşdirilməsinə də kömək etmiş olar;

11. Dövlət tərəfindən verilən subsidiyaların məhsul istehsalçılarına bərabər yox, daha çox məhsul istehsalçısına verilməsinə nəzarət edilməsi;

12. Qarşılaşacağımız mərhələlərə uyğun müvafiq tədbirlərin həyata keçirilməsi mezoiqtisadi siyasətin səmərəliliyinin təmin olunması şəklində qurulması və sair.

*Hər birimiz inanırıq ki, ölkəmizdə yaradılmış sağlam iqtisadi mühit qarşıdakı illərdə mövcud iqtisadi inkişaf potensialını daha da inkişaf etdirəcək və daha dayanıqlı, daha etibarlı iqtisadiyyat formalaşacaq.*

**Cavadxan QASIMOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## Muxtar respublikada yeni sənaye sahələri yaradılır



*İqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək, yüksək texnologiyalar əsasında sənayenin davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Son illər müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini və innovativ istehsalın inkişaf etdirilməsini daha da sürətləndirib.*

Ötən il sənaye sahəsinə 36 milyon manatdan çox investisiya yatırılmış, modern və müasir tələblərə uyğun rəqabətqabiliyyətli sənayenin yaradılmasına yönəlmiş tədbirlər real nəticələr vermişdir. “Sənaye ili” çərçivəsində məişət və kənd təsərrüfatı avadanlıqları, çaxır, dondurma, mebel, ayaqqabı, plastik qapı-pəncərə istehsalı sahələri olmaqla, ümumilikdə, 16 layihə üzrə işlər başa çatdırılmış, 101 yeni iş yeri açılmışdır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu sənaye məhsullarının istehsalına və emalına xidmət edən 288 layihənin maliyyələşdirilməsinə 112 milyon 727 min 872 manat, təkcə cari ilin ötən dövrü ərzində isə 4 milyon 993 min manat həcmində güzəştli kredit vermişdir.

Muxtar respublikada reallaşdırılan iri sənaye layihələrindən olan Şərur Sənaye Məhəlləsində işlər davam etdirilmişdir. Hazırda burada 2 mebel və 1 ayaqqabı istehsalı müəssisəsi fəaliyyət göstərir. Qabaqcıl dünya təcrübəsi nəzərə alınmaqla yaradılan sənaye məhəlləsində muxtar respublikamızda böyük tələbat duyulan bitki yağının istehsalı da nəzərdə tutulmuşdur.








Qeyd edilənlərlə yanaşı, Naxçıvanda yeni Duz İstehsalı Müəssisəsinin, “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətində salfet və araq istehsalı sahələrinin yaradılması davam etdirilməkdədir.

Belə müəssisələrin yaradılması daxili resursların payının artırılması hesabına iqtisadiyyata daha çox sərmayə qoyulmasında, dövlət xərclərinin tənzimləyici rolunun və sosial səmərəsinin daha da artmasında mühüm rol oynayacaqdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*“...Arzusuna çatmış Dina artıq nə üçün mübarizə apardığını bilirdi. Əliboş qayıtmırdı və artıq onun bir qənaəti də vardı: Nağıllar dünyasına aparan kitabı mühafizə etmək”. Göz gəzdirdiyim bu kitabdakı sətirlərə nəzər saldıqca nağıllar dünyasının sehrinə qapılaraq başqa bir aləmə səyahət edirdim sanki. Dörd bir tərəfimdə yerləşən kitab rəflərinə səliqə ilə düzülmüş, səhifə cildi rəngarəng nağıl qəhrəmanları olan kitablar məni öz dünyasına səsləyirdi. Elə o an Uşaq Kitabxanasının əməkdaşı **Kəmalə xanım**ın səsi məni sirli-sehrli uşaq aləmindən real dünyaya qaytardı: “Uşaq tərbiyə etməyin ən gözəl yollarından biri onlara kitab oxumağı aşılamaqdır. Xüsusilə uşaqların yaşlarına uyğun nağıl kitabları onların tərbiyəsində və xarakterinin formalaşmasında böyük rol oynayır. Elə bu guşə də balacaların zövqünə, yaşına uyğun kitabların seçilib yerləşdirildiyi guşədir. Nağılların əksəriyyəti xoşbəxt sonluqla bitdiyindən uşaqlarda sevinc, ümid, güvən kimi duyğular yaranır”.*



# Uşaq tərbiyə etməyin ən gözəl yolu onlara kitab oxumağı aşılamaqdır

## *Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası bu yolda ən yaxşı bələdçidir*

Kitabxana ilə əyani tanışlıq zamanı ömrünün yarısını bu işə həsr edən Kəmalə xanım bizə yeni istifadəyə verilən bu mədəniyyət ocağının keçmişindən bəhs edir. Deyir ki, Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası 1935-ci ildən 1965-ci ilin yanvar ayına kimi Naxçıvan şəhər kitabxanası nəzdində uşaq şöbəsi olaraq fəaliyyət göstərib. 1964-cü ildə Nazirlər Kabinetinin qərarı ilə ümumtəhsil məktəblərinə əməli metodik köməklik, həmçinin gənclərə kitabxana xidməti göstərmək məqsədilə Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası kimi 1965-ci ilin yanvar ayında fəaliyyətə başlayıb. Kitabxanaya 1978-ci ildə yazıçı-publisist Adil Babayevin adı verilib. Bu kitabxana ilk dəfə fəaliyyətə başlayanda 6000 ədəbiyyatı, 9000 oxucusu olub. Bu gün isə kitabxanada 100 minə yaxın ədəbiyyat var. Burada 36 əməkdaş çalışır. Hazırda kitabxananın 11 min 270 oxucusu var.



Kitabxananın direktoru ***Kəmaləddin Axundov*** ilə də söhbət etmək imkanı əldə etdik. O dedi ki, ötən əsrin 90-cı illərində – xaos, özbaşınalıq baş alıb gedən vaxtlarda, hətta respublikada elə kitabxanalar var idi ki, binaları satılmışdı. Kitabların minlərlə nüsxələri ləğv olunmuşdu. Lakin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra həmin kitabxanaların həm binaları özlərinə qaytarıldı, həm də kitab fondları. Ulu Öndər Heydər Əliyevin sayəsində məhz birinci dəfə ölkəmizdə 1998-ci ildə Azərbaycan Respublikasında kitabxana haqqında qanun qəbul edildi. Elə o vaxtdan təkcə kitabxanalar deyil, mədəniyyətin bütün sahələrinin geniş fəaliyyətinə imkanlar yaradıldı. Ümummilli Liderimizin siyasətinin davamçısı Prezident cənab İlham Əliyev mədəniyyət sahəsində böyük işlər görür. 2004-cü ildə ölkə başçısının göstərişi ilə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və təhsil müəssisələrindəki kitabxanalara latın qrafikası ilə yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılması təmin edildi. Çap olunan ədəbiyyatlar bütün kitabxanalara hədiyyə olundu. Bu günə kimi bu kitabxanaya da 10 mindən artıq latın qrafikası ilə nəşr olunmuş kitablar hədiyyə edilib. 2008-2013-cü illərdə maddi-texniki bazanın möhkəmləndirilməsi haqqında ölkə başçısının müvafiq Sərəncamı olub. Kitabxanalar kompüter sistemləri və müasir avadanlıqlarla təmin edilib. Bu gün ucqar kəndlərimizdə belə müasir kitabxanalarımız var.

Əvvəllər köhnə binada fəaliyyət göstərən kitabxana bu il noyabr ayının 29-da yeni bina ilə təmin olundu. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Hərtərəfli şəraitlə təmin olunan kitabxanada 3 kitab fondu, 2 dövri mətbuat fondu və iş otaqları var. Həmçinin burada 11 kompüter və elektron lövhə quraşdırılıb.

Kəmaləddin Axundov deyir ki, kitabxana tərəfindən məktəblərdə, universitetlərdə silsilə tədbirlər keçirilir. Bu tədbirlərdən biri yay tətili boyunca mütəmadi olaraq məhəllələrdə, parklarda, əhalinin sıx yaşadığı yerlərdə keçirilən səyyar kitab sərgisidir. Elə ötən yay tətilində 24-dən çox ərazidə kitab sərgisi təşkil olunub. Müşahidə edirik ki, bu üsul uşaqlarda kitablara marağı daha da artırır. Həmçinin valideynlərə dəstək olmaq məqsədilə hər il şəhər Təhsil Şöbəsindən siyahı alırıq. Dərslərdən geri qalan uşaqlardan 30 nəfəri növbəti dərs ilinə hazırlaşdırırıq. Maraqla qarşılanan digər tədbir isə “Təbiətin məktəbli töhfəsi” olub. Bu, Azərbaycanda ilk dəfə təşkil edilən tədbir idi. Gündəlik həyatımızda istifadə etdiyimiz batareyalar məktəblilər tərəfindən yığıldı. Yayda bütün respublikanın rayon kitabxanalarının köməkliyi ilə 35 min batareya toplandı. Bildiyiniz kimi, həmin batareyaların atıldığı ərazi torpağı zəhərləyir və həmin ərazidə heç bir bitki yetişmir. Hətta həmin zəhərlənmiş ərazidə ağac əkmək belə yararsızdır. Bu təşəbbüs Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yüksək qiymətləndirildi. Nazirlik tərəfindən batareya toplamaqda əməyi olan uşaqlar mükafatlandırıldı.





Kəmaləddin müəllim deyir ki, uşaq kitabxanasının digər kitabxanalardan əsas fərqi ondadır ki, burada oxucunun mütaliəsinə rəhbərlik var. Kitabxanaçının birinci işi oxucuya rəhbərlik etməkdir. Bu uşaq 5 yaşındadır, nəyi oxuya bilər? Kitabxanaçı tərəfindən həmin uşağın yaş dövrünə uyğun olaraq kitab təklif edilir. Kitabxanada kiçikyaşlı uşaqlar üçün danışan kitablar mövcuddur. Kitab özü nağıl danışır. Bu, azyaşlı uşaqlar üçün çox maraqlıdır. Ümumiyyətlə, kitabxananın əsas məqsədi uşaqlarımızın milli dəyərlərimizi, ənənələrimizi öyrənməsidir.

Onu da deyim ki, buraya təkcə uşaqlar deyil, universitet tələbələri, müəllimlər də gəlirlər. Düzdür, uşaq-gənclər deyəndə 5 yaşından 16-17 yaşa qədər nəzərdə tutulur. Ancaq buna baxmayaraq, kitabxanaya hər yaş kateqoriyasından müraciət mümkündür.

Kitabxananı oxucular üçün daha maraqlı edən burada yaş qruplarına görə oxucu zallarının olmasıdır. Hazırda kitabxanada I-IV, V-XI sinif şagirdləri üçün oxucu zalları var ki, buradakı kitablar məhz həmin yaş dövrlərinə uyğun kitablardır. I-IV siniflər üçün oxu zalında 7 min 119 nüsxə, V-XI siniflər üçün 10 min 217 nüsxə kitab oxucuların istifadəsinə verilib.

…Amerika Pediatrlar Assosiasiyasının araşdırmaları göstərir ki, dünyada uşaqların böyük əksəriyyəti iki saat icazə verilən “ekran vaxtı”nı qat-qat aşırlar. “Ekran vaxtı”na televizor, planşet, kompüter, telefonla keçirilən vaxt aiddir. “Ekran vaxtı”nı kitabxana saatları ilə sıxışdırmaq üçün mütaliə tam uyğun bir alternativdir. Kitabxananın evdən müəyyən qədər məsafədə yerləşməsi təmiz havada gəzintiyə və uşaqlarla xoş söhbətə səbəb ola bilər. Bu həmçinin telefondan fəal şəkildə istifadə edən valideyn üçün də “telefonsuz” maraqlı bir fasilədir. Gəlin övladlarımızla birlikdə asudə vaxt taparaq sirli-sehrli uşaq aləminə, kitablar dünyasına səyahətə çıxaq!

**Gülcamal TAHİROVA**

# Şəhid ailələri dövlətin daim diqqətindədir

Böyük qürur və fəxr hissləri ilə qeyd etdiyimiz şanlı Zəfərimiz üçün müharibə dövründə böyük siyasi iradə və güc göstərən Prezidentimizə, eyni zamanda peşəkarlığı, qəhrəmanlığı, rəşadəti və cəsarəti ilə seçilən hərbçilərimizə, bu yolda ölümə gedən şəhidlərimizə, son ana qədər döyüşərək yaralanan qazilərimizə borcluyuq. ***“Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq”***, – deyən ölkə başçısı şəhidlərimizin ailələri



və qazilərimizin problemlərini daim diqqət mərkəzində saxlayır. Son illərdə bu istiqamətdə böyük işlər görülüb, şəhid ailələri və qazilərə yeni mənzillər, avtomobillər verilib. Qazilərin müalicəsi üçün reabilitasiya mərkəzləri açılıb və lazım gələndə onlar müalicə üçün xarici ölkələrə göndərililər. Şəhid ailə üzvlərinə dövlət tərəfindən müəyyənləşdirilmiş pensiya və müavinətlərin ödənilməsi, birdəfəlik sığorta ödənişi, aylıq olaraq şəhid ailəsinə Prezident təqaüdü verilməsi, şəhid uşaqlarının təhsil haqqını ödəməkdən azad olunması kimi humanist tədbirlərin həyata keçirilməsi şəhid ailələrinə dövlət qayğısının nümunələridir. Prezident cənab İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamı bu qəbildən olan şəxslərin mənzil və ya fərdi evlə təmin edilməsində mühüm rol oynayır. Şəhid ailələrinə sosial dəstək proqramı muxtar respublikamızda da davam etdirilir.

Dekabrın 30-da – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailəsi və qazilərlə görüşüb, İkinci Qarabağ müharibəsi şəhidinin ailəsinə, 5 qaziyə yeni mənzil, 11 qaziyə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılması zamanı sağlamlıq imkanlarını itirmiş 1 nəfərə avtomobillər təqdim olunub.



Kəngərli rayonunun Qıvraq qəsəbəsində mənzillə təmin olunan şəhid ailəsi ilə həmsöhbət olduğumuzda dövlətimizə minnətdarlığını bildirdi. Öyrəndik ki, Vətən müharibəsinin şəhidi Niyaməddin İsgəndərov 1985-ci il dekabr ayının 6-da Kəngərli rayonunun Xok kəndində dünyaya gəlmişdi. 1992-2003-cü ildə Xok kənd tam orta məktəbində təhsil almışdı. Niyaməddin 2003-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2020-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Qıvraq qəsəbəsində yerləşən “N” hərbi hissədə xüsusi təyinatlı qrupun kəşfiyyatçı radioteleqrafçısı olub. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin sıralarında oktyabr ayında torpaqlarımızın müdafiəsi üçün Qarabağa yollanıb. O, Füzuli, Cəbrayıl, Qubadlı və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə döyüşüb, Vətənə olan borcunu layiqincə yerinə yetirib. Hər kəsə qismət olmayan şəhidlik zirvəsinə yüksəlib. Noyabrın 22-də doğulduğu Xok kəndində son mənzilə yola salınıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün dövlət başçısının müvafiq sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda”, “İgidliyə görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib. İndi ondan yadigar qalan 8 yaşlı Mətanət adında bir qızı var.

Dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində şəhid ailəsi yeni mənzillə təmin olunub. Bu da onun ifadəsidir ki, dövlət başçısı şəhid ailələrini hər zaman diqqətində saxlayır. Bu gün Niyaməddin İsgəndərovun ailəsinin evlə təmin edilməsi ölkəmizdə şəhid ailələrinə göstərilən qayğının daha bir nümunəsidir.

Dövlətin şəhid ailələrinin sosial təminatının yaxşılaşdırılması sahəsindəki tədbirləri bundan sonra da davam etdiriləcək, şəhidlərimizin xatirəsi daim qəlbimizdə yaşayacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# İnformasiya sahibi olan dövlət orqanları ilə tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycan Respublikasında informasiya sahəsində hüquq və azadlıqların təmin edilməsi” mövzusunda tədbir keçirilib.*

Tədbirdə Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Asiman Abbasov giriş sözü ilə çıxış edərək tədbirin mahiyyəti, ölkəmizdə informasiya əldə etmək hüququnun təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər və görülmüş işlər barədə danışıblar.



Sonra Müvəkkil aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramova “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) – məhkəmədənkənar müdafiə mexanizmi kimi”, aparatın əməkdaşı Rəmzi Həsənov isə “İnformasiya əldə etmək hüququnun təmin edilməsi” mövzularında çıxış edərək müvəkkil tərəfindən informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə tədbir iştirakçılarına məlumat veriblər.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Hər fəslin öz yeməyi, öz süfrə qayğıları var. Yayın istisində sərinləmək üçün hazırlanan yeməkləri qışın soyuğunda süfrəyə gətirmək olmadığı kimi, qışın yeməklərini də yayda dada bilmirik. Soyuğu artıq hiss etməyə başladığımız, uzunsürən yorğun iş günündən sonra son dərəcə dadlı yeməklərin ətri gələn, isti, rahat evə tələsməkdən gözəl nə ola bilər?! Belə günlərdə qışın sevimli yeməkləri xəstəliklərlə mübarizə üçün mükəmməl çarədir.*

*Naxçıvan mətbəxi*

# Qış süfrələrinin bəzəyi xəmir yeməkləri

Biz də bu yeməklərin həm dadına baxmaq, həm də hazırlanma qaydasını öyrənmək üçün Sədərək rayonunun Qaraağac kəndində nənələrimizdən birinin isti ocağına üz tuturuq. Ev yiyəsi ***Dilbər nənə*** həmişəki kimi, bizi gülərüzlə qarşılayır. Evə dəvət edir, elə içəri girər-girməz xoş bir ətir vurur hamını. Soruşanda bu ətir haradan gəlir, nənə sobanın üstündə vam odda dəmlənən yeməyi göstərir və söhbətə başlayır:

– Elə ki havalar soyudu, ət və undan hazırlanan əsas qış yeməkləri süfrələrimizə gəlir. Təzə göyərti və tərəvəz olmadığından, bol-bol yay tədarüklərindən – qurudulmuş göyərti, şorabalar, mürəbbələrdən istifadə edirik. Qış fəslində bişirilən xörəklər içərisində əriştədən hazırlanan əriştə istisi və əriştə aşının xüsusi yeri vardır. Əriştəni nazik yayılmış xəmirdən uzunsov olaraq kəsib təzə halda bişirir, bəzən də qurudur, yüngül qovurur və lazım gələndə istifadə edirik. Əriştə istisi sulu xörək kimi bişirilir. Soğanı qovurmanın yağında qızardırıq. Bu zaman bir soğan doğranılır, bir neçə balaca ölçülü soğan isə bütöv şəkildə qazana atılır.

Nənə deyir ki, əriştə aşına dad verən məhsullardan biri də onun içərisinə bütöv şəkildə atılmış soğanlardır. Hələ payızda soğan tədarük olunanda ən balacaları seçilir, qışda əriştə aşı üçün saxlanılır. Ayrıca olaraq “maş” adlandırılan kiçikölçülü lobya dənələri də qaynadılır. Suyu süzülür və yeməyə əlavə olunur. Quru alça, ərik yuyulur, yemək hazır olana yaxın, yeni əriştə qazana tökülməmişdən qabaq xörəyə vurulur. Qədim yurdumuzun dağlarında əvəlik, ələyəz kimi müalicəvi əhəmiyyəti olan bitkilər bitir. Yazın son vaxtlarında həmin bitkilər yığılıb qurudulur. Payız-qış aylarında soyuqdəymə və başqa xəstəliyi olan adamlar üçün bu bitkilərdən hazırlanan yeməklərin çox böyük müalicəvi köməkliyi olur. Bu yeməyə də xüsusi dad və ətir verən ələyəzdir.

Onu çölməyə atmazdan əvvəl mütləq qaynar suda islatmaq lazımdır. Sonra həmin ələyəzi sudan çıxarıb möhkəm sıxırıq ki, “acı suyu” çıxsın.

Dilbər nənə bir məsləhət də verir: – Əriştəni təzə-təzə kəsib bu yeməyi bişirəndə daha dadlı olur. Bir də ki, kəsilən əriştəni dəstələyəndə bir az unlu saxlayıb yeməyə əlavə edəndə yeməyin suyu qatılaşır. Bu da həm doyuruculuğunu, həm də dadını artırır. Qazana ən son əriştəni əlavə edirik, əriştə qazandakı suyun üzərinə çıxanda yeməyin hazır olduğunu bildirən nənə dedi: – Ay qızım, gətirin boşqabları umac aşından (Sədərək rayonunun kəndlərində bu yeməyə “umac aşı” deyirlər) qonşulara da pay qoyum. Bizlərdə umac aşı bişiriləndə qonşulara da bu yeməkdən verilir.



Budur son qaşığa qədər yeyilib cana xoş istilik və sakitlik yayan dadlı-duzlu umac aşını qurtardıqdan sonra nənənin şirin söhbətini dinləyirik. O, bayram əriştə aşından da danışır:

– Əvvəllər qovrulmuş, qurudulmuş əriştədən bayram aşı bişirmək əhali arasında dəbdə idi. Bu gün də çox evlərdə bu yemək hazırlanır. Düyü yuyulduqdan sonra duzlu suda isladılır və su qaynayana qədər isladıla qalır. Su qaynadıldıqdan sonra duz ataraq düyünü qazana tökürük. Düyü suda qaynayan zaman bir neçə dəfə kəfkirlə qarışdırılır. Bir az qaldıqdan sonra qızardılmış əriştə qazana tökülərək bişənə qədər qaynadılır. Düyü və əriştə yumşaldıqda aşsüzəndə süzülür. Su süzüldükdən sonra aşsüzəndəki düyü yenidən başqa qabın üzərinə qoyulur ki, düyünü süzülərkən yığılan suyun buxarı vurub əzməsin və su tamamilə çəkilsin. Qazana ərinmiş yağ atılaraq odun üstünə qoyulur. Yağ əridikdən sonra qazanın dibinə halqa-halqa doğranmış kartof, üzərindən əvvəlcədən doğranıb duzlanmış soğan düzür və düyünü tökürük. Düyüyə azacıq sarıkök vurulur. Yenidən qazan vam odun üzərinə dəm almaq üçün qoyulur. Aşın yaxşı bişməsi üçün qazan odun üstündə bir neçə dəfə fırladılır və dəmi alınır. Qazanın yanına bir qədər su çilədikcə su yumrulanıb cızıltıyla düşürsə, demək aş dəm alıb, yemək hazırdır. Bişirilərək dəmə qoyulan əriştə aşına qazmaq hazırlanır, tərkibinə bəzən düyü, lobya və ya paxla qatır, zövqdən asılı olaraq qovurma ilə yeyirlər. Aşdan söhbət düşmüşkən qədim bir adəti də xatırlayan nənə söhbətə başlayır:

– Qədimdə küsülüləri barışdırarkən “küsü plovu” adlı yemək bişirilərdi. Qucaqlaşıb barışandan sonra süfrəyə böyük məcməyidə aş gətirilər, hamı eyni qabda plov yeyərmiş. Arada təzə barışanlar bir-birinə öz əlləri ilə plov yedizdirərmiş. Elə indi də bəzən küsülü olan adamlara zarafatyana “gəlib aş bişirib sizi barışdıracağam”, – deyərlər.

Nənə onu da deyir ki, el arasında əriştə ilə bağlı tapmacaların (“Qaşığa minər, ayağını sallar”), el deyimlərinin (“Özünə umac ova bilmir, özgəsinə əriştə kəsir”, “Əriştə bəylər aşı, tutmac onun yoldaşı”) geniş yayılması bir daha təsdiq edir ki, bu yemək xalqımız tərəfindən daim sevilib. Evin qonağı olan yaşı 80-i keçmiş ***Səkinə nənə*** isə keçmişi xatırlayır, onun şirin söhbətini də oxucularımızla paylaşmağı lazım bildik:

– Qış dövründə evdə çör-çöplə, ocaq yandırılardı. Yanan ocaqdan buxarı xatırladan son dərəcə xoş tüstü çıxır. Odun yanan yerdə heç kimin ağciyər xəstəliyi olmazdı. Evlərdə formasından asılı olaraq iki növ ocaqdan istifadə olunardı – uzun müddət saxlanılan lavaş-çörəklər və bəzi yeməklərin hazırlanması üçün yerdə qazılan təndir və buxarı – daşdan hazırlanan və divarın içində hörülən soba. Təndirin üzərinə yataq qoyardılar, onun üstündən palaz salıb yatardılar. Belə yatağa “kürsü” deyərdilər. Divarın içində hörülən buxarı sobalarında zəncirlərdən asılan qazanlar üçün qarmaqlar olardı. Bir çox yeməkləri uzun müddət bişirmək lazım gəlirdi, ona görə də yaşlı qadınlar bütün gecə onları aramsız bişirərdilər. Ətraflarına uşaqlar yığışar və yuxuya gedənədək nənələrin nağıllarına qulaq asardılar. Kürsünün ətrafında uzun qış gecələrində yemək bişirə-bişirə bir gecəyə bir cüt yun corab da toxuyardıq. Səkinə nənə keçmişdən danışanda yadına qədim Naxçıvan yeməkləri də düşür və onlar haqqında da söhbət açır: – “Qam-qax” adlanan bu yemək acıtmalı xəmirdən olur. Xəmiri oxlovla açır, yarpaq xəngəl kimi doğrayıb yağda qızardır, üstünə bal, doşab və ya şəkər tozu səpib yeyirlər. Xəşil də qış fəslində bişirilən dadlı yemək növüdür, – deyən nənə onun da hazırlanma qaydasından danışır. Bunun üçün qaynar suya az-az un əlavə edərək oxlovla çala-çala





(qarışdıraraq) qaynadırlar. Məhlul qatılaşanda od üstündən götürülür, boşqablara çəkilir, üzərinə şəkər tozu, bal, ərimiş yağ və bəkməz tökülərək yeyilir. Xəşil, adətən, səhər yeməyi sayılır.

“Naxçıvanda xəmir xörəklərinin ən sadə və geniş yayılmış növlərindən biri də umacdı, – deyə söhbətə qoşulan ev yiyəsi bu yeməkdən də danışır. Umac öz tərkibinə görə üç növdə (adi, südlü, əvəlikli umac) hazırlanır. Südlü umac istisna olmaqla digər umac növlərinə istiot və nar suyu qatılır, soyuqdəyməsi olan ailə üzvlərinə tərlətmə vasitəsi kimi verilir. Umacın hazırlanma qaydası isə belədir: Unun üstünə duzlu su ilə çalınmış yumurta əlavə edilir və un ovuşdurulur. Bu zaman xırda xəmir qırıntıları alınır. Yağda qızardılmış soğan suda qaynadılır, xəmir qırıntıları ələkdə silkələnib, artıq undan azad edilir və qaynar bulyona tökülərək, arası kəsilmədən qarışdırılır. Süfrəyə verildikdə umaca nanə səpilir. Bu yeməyin bir çox bişirilmə qaydası var ki, bəzi kəndlərdə ət, qovurma ilə bişirilib içərisinə əvəlik və ya ələyəz qatılır. Qış xörəkləri sırasında buğlamanı da, daha doğrusu, “öz buxarında bişən” saymaq olar. Bu yemək çox yayılan və sevilən qoyun əti, soğan, bibər, alça ilə qat-qat şəkildə düzülərək dəmdə bişirilir.

– Qış gəldimi, (buna baş-ayaq, kəlləpaça da deyirlər) xaşı da diqqətdən qaçırmaq olmaz, – deyərək kənardan qadınların söhbətini dinləyən ***Həsən dayı*** səslənir. Onun sözlərinə qüvvət verən Səkinə nənə xaşın bişirilməsindən danışır və bildirir ki, xaş malın (dana) ayaqlarından (dırnaqlarından) hazırlanır. Çox vaxt xaşa qarın nahiyəsinin hissələri və kəllə də əlavə olunur. Bunları minalanmış qazanın içinə qoyub üstünə su tökür, baş soğan atırıq ki, kəf yaxşı yığılsın və kök salırıq ki, suyu şəffaf olsun. Bir xeyli qaynadıqdan sonra soğanı və kökü çıxarırıq. Sona yaxın duz, iri istiot və dəfnə yarpağı əlavə edirik. Bu yemək gecədən ocağa asılır ki, səhərə kimi vam odda bişsin, necə deyərlər, əti sümükdən ayrılsın. Ət sümükdən ayrılarkən, bulyon yağlı qızılı rəngdə olur. Xaşı sirkənin içində sarımsaqla, nar turşusu, şoraba, göyərti ilə yeyirlər. Bu yemək ağır fiziki işlə məşğul olan insanlar üçün enerjini bərpa etmək baxımından ən yaxşı xörəkdir. Bu məqsədlə onu sübh tezdən yemək lazımdır. Bundan başqa, xaşın tərkibində olan maddələr sümüklərin sınmasından sonra tez bitişməsinə kömək edir. Əvvəllər kənd toylarında gecədən bir neçə qazan xaş asılardı, səhər tezdən kəndin kişiləri xaşa gələrdilər. Toy məclisinin ən vacib yeməklərindən biri olan xaşın suyunu stəkanlara doldurub məclisə gətirərdilər. Xaşın suyunu bu şəkildə içməyi hər adam bacarmazdı, belələri sağlam insan hesab edilərdi.

*Beləcə, qış süfrələrimizin bəzəyi, cana məlhəm, dərdə dərman olan xəmir yeməkləri haqqında söhbətimizi şirinkamlıqla yekunlaşdırırıq. Bu yeməklər barədə söhbət açmaqla xalqımızın qonaqpərvərliyinin, süfrə mədəniyyətinin qədimdən bu günə kimi necə gözəl yaşadıldığını göstərmək istədik.*

**Ramiyyə ƏKBƏROVA**

---

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən 2022-ci ilin dekabr ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmiş, müəyyən nöqsanlar qeydə alınmışdır. Müşahidə edilən nöqsanlar operativ şəkildə teleradiolara bildirilmiş və aradan qaldırılmışdır.*

## Teleradiolarda peşəkarlıq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzindədir

Hesabat dövründə Naxçıvan televiziyasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirak etdiyi tədbirlərlə və REAL TV-yə müsahibəsi ilə bağlı, ümumilikdə, 5 telematerial hazırlanmışdır. Dekabr ayında verilişlərin növbəti 95 sayı efirə təqdim olunmuşdur.

Naxçıvan radiosu dekabr ayı ərzində günün aktual mövzularını diqqət mərkəzində saxlamış, proqram siyasətini gündəmə uyğun qurmuşdur. Bəhs edilən dövrdə radio 488 saat efirdə olmuşdur. Ümumi efirin 41,3 faizini radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audiocarxlar, 58,7 faizini isə konsert proqramları və digər hazır materiallar təşkil etmişdir.

Hesabat dövründə “Kanal 35” televiziyasının efirinə nəzarət olunmuş, şura işini televiziyanın yaradıcı və texniki əməkdaşlarına dəstək şəraitində təşkil etmişdir. Dekabr ayının 5-də “Kanal 35” televiziyasında texniki baxış keçirilmişdir. Profilaktika ilə əlaqədar şura əməkdaşı televiziyada yayım avadanlıqlarının sazlığının yoxlanılması prosesində iştirak etmiş, televiziyanın arxiv işinin təşkili zamanı burada həyata keçirilən profilaktik işlərlə tanış olmuşdur.

Dekabr ayında “Naxçıvanın səsi” radiosunda “Təhsilə dair”, “Şagirdlə efir vaxtı”, “Laləli dəqiqələr”, “İdman saatı”, “Sizin səsiniz”, “Salam Naxçıvan”, “Şənbə söhbətləri”, “Günellə hüququnu bil”, “Həyatın içindən”, “Müəllimlər otağı”, “Ailə və uşaq”, “Müzakirə vaxtı”, “Gənc bizik”, “Retro saatı”, “Günayla günaydın” proqramları efirə yayımlanmışdır.

Naxçıvan Dövlət Universiteti televiziyasının fəaliyyəti izlənilmiş, yol verilmiş nöqsanlar diqqətə çatdırılmışdır. Televiziyanın öz istehsalı olan verilişlər “Açıq dərs” başlığı ilə təqdim edilmişdir.

“Nuhçıxan” radiosunda dekabr ayında “Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafının Azərbaycan Respublikasının milli iqtisadi prioritetlərindəki rolu” adlı elmi yanaşmanı diqqət mərkəzində saxlayan proqramlar yayımlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

---

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:** Erkən nikah nədir?*

***Cavab:*** Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 (bir) ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Qeyd olunan yaş həddindən aşağı yaşda ailə-nikah münasibətlərinə daxil olma erkən nikah hesab olunur. Erkən nikah ailə məsələlərində ciddi məqamlardan biridir, ailənin və ailə üzvlərinin taleyinə birbaşa təsir edir. Bu absurd nikah əsasında qurulan ailələrdə nikahın pozulması, məişət zorakılığı, xəstə uşaqların dünyaya gəlməsi, fiziki-psixoloji çətinliklər, təhsildən məhrumedilmə və şəxsi azadlıqların itirilməsi kimi mənfi nəticələr qaçılmazdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152-ci maddəsinə əsasən on altı yaşına çatmayan şəxslə ailə-nikah münasibətlərinə daxilolma cinayət məsuliyyətinə səbəb olur. Həmin əməli törətmiş şəxs üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə isə üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Cinayət qanunvericiliyinə əsasən qadını nikaha daxil olmağa məcburetmə əməlini törətmiş şəxs iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə isə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bəli, erkən nikah potensial təhlükədir. Erkən nikah ailə faciəsinin təməlidir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Gizir Əliyev Elçin Vüsal oğlunun adına olan SQ-N-0026409 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Babayev Murad Yasin oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 21